# 28 Maydan başlayan Turan yolu

## Rəsulzadə dünyagörüşündə türkçülük və turançılıq ideyaları





Ələsgər Siyablı
Tarixçi.
Almaniya, Velbert şəhəri

(əvvəli ötən sayımızda)

***Hələ XIX əsrdə Turanizm nəzəriyyəsinin müəlliflərindən biri Türkiyə yəhudisi Alp Tekin imzası ilə Turanın tarixinə aid bir neçə kitab yazan Leon Kahun olmuşdur.***

***Azərbaycan və Türkiyə ziyalılarının böyük qismi Turanizm nəzəriyyəsi ilə tanış idilər.***

***Peterburq və İstanbul olmaqla iki yüksək səviyyəli universitet bitirmiş, dövrünün görkəmli ziyalılarından olan Əli bəy Hüseyinzadə Turanizm nəzəriyyəsi ilə yaxından tanış idi. Azərbaycanda ilk dəfə məhz o, sumerlərin türklüyü haqqında elmi fikirlər irəli sürmüşdür.***

***Türk dillərini "əssənəyi turaniyyə" adlandıran Əli bəy Hüseyinzadə "Türklər kimdir və kimlərdən ibarətdir?" əsərində yazır : "Türklər səhneyi-tarixiyyəyə miladi-İsadan 2000 il əqdəm çıxıb, o vaxtdan bəri mənşə və dil etibarı ilə bir sıra müxtəlif təsirata məruz olmuşdular."***

***Əli bəy bir çox alimlərə istinadən "əssənəyi-turaniyyə zümrəsinə aid edilənlərdən başqa bir də xətti-mixi ilə yazılmış akkadi,yaxud şumeri deyilən qədim bir lisanı dəxi daxil etmək lazım gəlir" deyə sumerlərin turanlı olduqları fikirini irəli sürür". (1.45,51)***

Əli bəy Heseyinzadənin turanlılar və sumerlər haqqındakı fikirləri M.Ə.Rəsulzadə tərəfindən konkret müəlliflərə əsaslanmaqla daha geniş şəkildə şərh olunur.

M.Ə.Rəsulzadənin əsərlərinin dərindən araşdırılması, onun Azərbaycanın və eləcə də qədim şərqin tarxinə dair söylədiyi fikirlərin təhlili, Turanizm nəzəriyyəsi və onun baniləri olan görkəmli alimlərin əsərləri ilə tanış olduğunu göstərir. Rəsulzadəyə görə Qafqazın yerli əhalisinin ən qədim dövrlərdən etibarən hansı irq tərəfindən məskunlaşdığı sualına aydınlıq "gətirə bilmək üçün məhşur "Turan nəzəriyyəsi" tərəfindən ortaya qoyulan məsələlərin fənnən həlli bəklənməlidir. Şumerlərin, akadların, əski midiyalılarla hititlərin türk irqinə mənsubiyyətlərini iddia edənlərcə, bu sualın cavabı müsbətdir. Nəzəriyyəni şübhəli sayanlar isə bura yerlilərini akademik Marr tərəfindən irəli sürülən yafəsilərə intisab etdirirlər. Bu məktəbə görə şərqi-qərb ilə bilxassə Qafqasiyada qədim zamanda yafəsi dənən müstəqil bir irqə mənsub qövmlər yaşıyormuş. O, "Bu məsələnin həlli üçün Herodot ilə Strabonun sak, iskit, kimmeri və massacta namı ilə qeyd etdikləri qövmlərin mahiyyətlərinin də bilinməsi lazım" olduğunu qeyd edir. (2.412).

Rəsulzadə tarix haqqında irəli sürdüyü fikirlərdə Antik dövr müəlliflərinin və Avropanın görkəmli tarixçi alimlərinin əsərlərinə istinad edir, onlardan sitatlar gətirir. O bir çox tarixi hadisələrin şərhində Orta əsr müsəlman müəlliflərindən İbn əl-Əsir, Yaqut Həməvi, Əl Müqəddəsi, Təbəri, Övliya Çələbi, Antik müəlliflərdən Herodot, Strabon,Turanizm nəzəriyyəsinin baniləri F.Lenormanın, A.Seysin, N.Marrın,Nikela Qrabilsin və s. müəlliflərin fikirlərinə əsaslanır.

Azərbaycan tarixşünaslığında şumerlərin və midiyalıların türklüyü məsələsinə tarixi dəlillər əsasında aydınlıq gətirən ilk fikir adamının M.Ə.Rəsulzadə olduğunu qeyd etsək yanılmarıq.

Ön Asiyanın qədim tarixinə aid dəlilləri özünün təhlil süzgəcindən keçirən Rəsulzadə Bisütun kitabəsinin ikinci mətninin oxunmasından sonra bu mətnin yazıldığı dilin midiyalı turanlılara aid olduğunu və onun transkripsiyasının sumer mixi yazılarının da oxunmasını mümkün etdiyini qeyd edir. Rəsulzadənin fikrincə mixi kitabəsinin oxunması nəticəsində sumer dilinin turan dili və sumerlərin turanlı olduqları məsələsində heç bir şübhəyə yer qalmır.

Məlum olduğu kimi Əhəməni padşahı I Daranın Bisütun qaya kitabəsi üç dildə yazılmışdır. Birinci mətn zənd dilində, üçüncü mətn isə sami-babil dilində yazılmışdır. İkinci mətnin yazıldığı dilin mənsubiyyəti müəyyən mübahisələrə səbəb olmuşdur. Avropa tarixçilərindən Y.Oppert, F.Lenorman və başqaları ikinci mətindəki dilin midiya dilində yazıldığını və türk dilləri ilə eyniyyət təşkil etdiyi fikrini irəli sürmüşlər.Lakin midiyalıları ciddi cəhdlə iranlı-ari irqinə aid edən keçmiş və bugünki bir çox tarixçilər onların türklüyünü qətiyyətlə inkar edirlər.

Avropa tarixçilərindən F.Lenormanın və digərlərinin Midiyalıların turanlı olduqları haqqındakı fikrlərini əsas götürərək midiyalıların türk olduqları və bu ölkənin gerçək adının "Turan Midiya"sı kimi qəbul edildiyi fikrini müdafiə edən Rəsulzadə yazır ki, İran tarixində Midiyadakı arilərdən bəhs olunur, lakin bu arilər yerli xalq deyillər, onlar Midiyaya şərqdən gələrək yerli turanlıları öz yurdlarından sıxışdırmışdılar.Yerli turanlılar gəlmə arilərə birdən-birə təslim olmamış uzun müddət onlara qarşı mübarizə aparmışlar. İranlılar burada yerləşdikdən sonra bu ərazi təkrar turanlıların hücumuna məruz qalmış və Turanın bir hissəsi olan Azərbaycan uzun illər ərzində davam edən İran-Turan mübarizəsinin mərkəzinə çevrilmişdir.

***Rəsulzadə yazır ki, bu mübarizədə gah Turan, gah da İran qalib gəlmiş və nəhayətdə Turan xaqanı Tomris xanım Keyxosrovun başını Azərbaycanda Kür çayının sahilində kəsərək öz əcdadlarının intiqamını almışdır. (6.32)***

Tarix elmi haqqında heyrətamiz dərəcədə dərin bilgi nümayiş etdirən M.Ə.Rəsulzadə "Əsrimizin Səyavuşu" əsərində tarixin fəlsəfəsi haqqında dəyərli fikirlər irəli sürür. Onun gəldiyi nəticəyə görə hər bir xalqın tarixi mifik qəhrəmanlıq və xalq idarəçiliyi olmaqla iki mərhələdən ibarətdir. Bəşər tarixinin ilkin mərhələsini təşkil edən qəhrəmanlıq dövründə millətlərdən, millətin əsil kütləsini təşkil edən xalqdan, onun adət və əxlaqından bəhs olunmur. Bütün həyat ayrı-ayrı qəhrəmanların xəyal olmuş şəxsiyyətlərində-mifoloji simalarında canlanır. Rəsulzadə bu dövrün hakimiyyət idarəçiliyini xarakterizə edərək yazır: "Bu dövrdə hakimiyyət xalqdan deyil, Allah tərəfindən bir bəxşeyiş olaraq verildiyindən hökmdarlar çoban , məhkumlar isə qoyun timsalında idilər. Məsuliyyət yalnız çobana aid olduğundan iradə ilə hökm də onun idi. Buna görə də qanuna əsasən o, ayırıcı (separatist) və ya ittifaqçı, döyüşkən və ya barışsevər olurdu." (6.31).

M.Ə. Rəsulzadəyə görə cəmiyyətin sonrakı inkişaf mərhələsində "həyat tərzi dəyişir, getdikcə cəmiyyətin fəaliyyət yoluna çevrilən fərdlər çoxalır, nəhayət ortaya siniflər və təbəqələr gəldikdə, tarixin təbiəti dəyişilir". Artıq "XX əsr demokratik fikirlər dövrüdür.Şəxsi fərq qoyulan və cəngavər olan, sayılan aristokratiyanın yerini indi mütəfəkkir və texniki bilik sahibi, sadə xalq demokratiyası tutmağa başlayır. Köhnə əsrdə xalqın fövqündə duran despot firon qəhrəmanların taxtında indi xalqın ümumi idrakının daşıyıcısı fikir sahibi insanlar oturmağa başladı... hakimiyyət imperatorlardan, şahlardan xalqa, bilgi kahinlər, sehrbazlar və ilahilərdən alimlərə, texniki elm sahibləri və yazarlara keçdi. ("6.30-31)

Rəsulzadə tarixi inkişaf haqqındakı bu konsepsiyanı Azərbaycanın tarixinə, Azərbaycan Xalq Cümhuriyyətinin timsalında xalqın iradəsi ilə yaradılan demokratik milli hakimiyyətə şamil edir. Beləliklə Rəsulzadənin tarix fəlsəfəsində xalq hər bir toplumun əsas hərəkətverici qüvvəsini təşkil edir.

Türk tarixinə və mifologiyasına dərindən bələd olan M.Ə.Rəsulzadə şərq tarixinin bir sıra hadisələrini türkçülük mövqeyindən şərh edir. O, Novruza həsr etdiyi bir neçə məqaləsində bu bayramın öz kökləri ilə türk tarixi ənənələrinə bağlı olduğunu onun bütün türk dünyasında eyni təntənə ilə qeyd edildiyini və çox qədim ənənəyə söykənən bu bayramın yalnız İran bayramı kimi təqdim edilməsini yalnış hesab edir. Həmçinin bir Turan bayramı olan Novruz əslində türklər üçün yeni günün başlanğıcı- Erqənəkondan qurtuluş günüdür. Novruzu türklərdə xilaskarlıq simvolu qurdla əlaqələndirən Rəsulzadə yazır ki, türklər həmin gün "dağı əritdilər. Açıq dünyaya keçdilər. Əsarətdən qurtuldular. Bu "qurtuluş" əsatircə martın 9-da vaqe olmuşdu. Şayani-etinadır ki, nicat və azad olmaq mənasma gələn türkcə qurtulmaq və qurtuluş sözləri haman qurd və olmaq sözlərindən tərkib ediyor. Qurtulmaq ehtimal qurd olmaq deməkdir ki, qurd kibi yol bulub bu mühasirədən çıxmağa dəlalət edir. Şərqin iki böyük milləti novruz ilə qurtuluşunu mart ayında bulmuşdur. (3.81)

Rəsulzadəyə görə Novruzun təsisi mifoloji baxımdan Cəmşidə aid edilsə də, o ərəblər tərəfindən qadağan olunmuşdur. Onu 8 əsr sonra həyatda tətbiq edən Türk Sultanı Cəlaləddin Məlikşah olmuşdur. Buna görə də İranda onun adı Cəmşidi deyil Sultanidir, Novruz Sultani adlanır. Türk Sultanının İranda həyata keçirdiyi təşəbbüs yalnız Novruzla məhdudlaşmır.Bu İran təqviminə də şamildir.Turanın böyük astonomu Uluğun tətbiq etdiyi illərin heyvan adı ilə adlanması türk üsulu təqvimi İranda hələ də istifadə olunmaqdadır.Türk münəccimləri,Turan kahinləri illərə verlən heyvan isimlərinə görə ilin düşərliyini və ya səadətini müəyyən edərdilər.(5.456-457.)

Böyük Öndər Azərbaycanı qədim Turanın bir parçası və ən qədim dövrlərdən türklərin məskunlaşdığı müqəddəs vətən hesab edir, tarix boyu öz azadlığı uğrunda yadelli iranlılara qarşı ardıcıl mübarizə aparan azərbaycanlıların tarixin sonrakı dövrlərində farslaşmaya məruz qalmalarını ürək yanğısı ilə ifadə edərək yazır: "Bir çox zaman azərbaycanlılar öz türklüklərini bilməyərək xalis iranlılar kimi yaşadılar. Bu, o zaman idi ki, bütün Türk aləmi az-çox İran təsirində idi, o zaman idi ki, Sultan Səlim farsca şeirlər yazıb oxuyur, az qalırdı bunu rəsmi dil elan etsin. (6.33).

Yaratdıqları "Azərbaycan Cümhuriyyətinin aləmi-islamda təşəkkül edən ilk Cümhuriyyət olduğunu vurğulayan M.Ə.Rəsulzadə Anadolu türklərindən öncə hələ 1919-ci il 28 mayda Cümhuriyyətin bir illiyi il? əlaqədar GIstiqlal məcmuəsi"ndə dərc etdiyi GAzərbaycan Cümhuriyyəti" məqaləsində Türkiyə adını ilk olaraq Azərbaycana şamil edərək "Bu Cümhuriyyət eyni zamanda bir türk hökumətidir; təbiri-digərlə kiçik Türkiyədir" deyə yazır.(Aəzərbaycan Cümhuriyyəti,Səh.9)

***M.Ə.Rəsulzadənin türkçü-turançı görüşlərində Azərbaycan mərkəzi rol oynayır. Keçmiş tarixdə olduğu kimi müasiri olduğu dövrdə Azərbaycanın Turan tarixində oynadığı önəmli rolu müəyyən edərkən o, dövrün görkəmli şəxsiyyətlərinin və mütəfəkkirlərinin bu haqdakı fikirlərinə də istinad edir.***

***O, türkçülüyün və turançılığın ideoloqu Ziya Göy Alpın Turan dünyası üçün Azərbaycanın malik olduğu önəmə dair fikrini sitat gətirir.Ziya Göy Alp Türkiyəyə xitabən yazırdı 'Sənin istiqbalın artıq Qərbdə deyil ,Şərqdədir. Sənin istiqbalın nə Rum eli, nə Hicaz, nə də İraqda Türküstandadır, fəqət sənin yolunun üzərində, əski Turanın göbəyində Azərbaycan adında bir gənc igid, dəliqanlı var.Yeni Turanın açarı ondadır. Onunla öncə anlaşılmazlıq yaratsan, öncə onun könlünü qırıb özünə bir zərər versən, bütün imkanların hədər, əməllərin xarab, taxtın da bərbad olar.'"...***

(ardı gələn sayımızda)